**1.** Kazım öz puluna 8 dəftər, 5 karandaş, və ya 6 dəftər, 8 karandaş ala bilər. Dəftərin qiyməti karandaşın qiymətindən neçə dəfə çoxdur?

*(27 aprel 2025, DİM)*

**2.** Uşaq anadan olanda atası 25 yaşında idi. İndi onların yaşları cəmi 45 olarsa, uşağın neçə yaşı var?

*(27 aprel 2025, DİM)*

**3.** İki fəhlə birlikdə tapşırığı 8 saata yerinə yetirir. Birinci fəhlə təklikdə həmin tapşırığı ikincidən 12 saat tez yerinə yetirir.
Birinci fəhlə təklikdə bu tapşırığı nə qədər vaxta yerinə yetirər?

*(27 aprel 2025, DİM)*

**4.** $4x^2 - 3x = 0$ tənliyini həll edin.

A) $\frac{1}{3}; -\frac{3}{4}$ B) $0; \frac{3}{4}$ C) $\frac{1}{3}; 4$

D) $0; -4$ E) $0; \frac{1}{3}$

*(20 aprel 2025, DİM)*

**5.** $a$-nın hansı qiymətində $3a+9$ ifadəsinin qiyməti $4a-18$ ifadəsinin qiymətindən 3 dəfə böyük olar?

A) 7 B) 2,3 C) 8 D) 5,2 E) 6,1

*(20 aprel 2025, DİM)*

**6.** Avtobusda 30 nəfər sərnişin var idi. Birinci dayanacaqda 7 nəfər sərnişin düşdü, 9 nəfər mindi, ikinci dayanacaqda 14 nəfər düşdü, 4 nəfər mindi. Avtobusda ikinci dayanacaqdan sonra neçə nəfər sərnişin oldu?

*(20 aprel 2025, DİM)*

**7.** Mətbəədəki rəngli və ağ-qara çap olunan bir vərəqin çap qiyməti cədvəldə verilmişdir.

| Çapın növü | Bir vərəqin çap qiyməti (manat) | |
|---|---|---|
| | 1-1500 vərəq | 1500-dən çox vərəq |
| Rəngli | 0,6 | 0,45 |
| Ağ-qara | 0,35 | 0,3 |

Elnur bu mətbəədə $\frac{1}{5}$-i ağ-qara, qalanı rəngli çap olunmaqla cəmi 4000 vərəq çap etdirdi. Buna görə o, mətbəəyə neçə manat ödəməlidir?

*(20 aprel 2025, DİM)*

**8.** Elnur hər gün eyni miqdarda pul xərcləyir. Elnurun pulunun və xərclədiyi pulun miqdarını göstərən qrafik aşağıda göstərilmişdir. Elnurun pulu neçə günə bitər?




*(20 aprel 2025, DİM)*

**9.** $3(x-2)=6$ tənliyini həll edin.

A) 3 B) 1 C) 4 D) 2 E) 5

*(13 aprel 2025, DİM)*

**10.** İki yeşikdə birlikdə 50 kq qənd var. Hər gün birinci yeşikdən 3 kq, ikincidən 2 kq qənd götürdülər. 6 gündən sonra yeşiklərdə bərabər miqdarda qənd qaldı. Əvvəlcə birinci yeşikdə neçə kq qənd var idi?

*(13 aprel 2025, DİM)*

**11.** Satıcı şarın birini 12 qəpiyə alıb 15 qəpiyə satır. Satış zamanı 5 şar partlamışdır. O, bütün şarların alqı-satqısından 6 manatdan çox gəlir əldə edərsə, ən azı neçə şar alıb-satmışdır?

*(13 aprel 2025, DİM)*

**12.** $x+0,5=0,(7)$ tənliyini həll edin.

A) $\frac{4}{9}$ B) $-\frac{1}{9}$ C) $\frac{5}{18}$

D) $\frac{7}{18}$ E) $-\frac{11}{18}$

*(5 may 2024, DİM)*

**13.** Uşağın 10 yaşı, atanın 31 yaşı var. Neçə il bundan əvvəl ata uşağından 4 dəfə böyük idi?

*(5 may 2024, DİM)*

**14.** Nəzrin öz puluna 7 dəftər və 3 karandaş, ya da 5 dəftər və 7 karandaş ala bilər. Dəftərin qiyməti karandaşın qiymətindən neçə dəfə çoxdur?

A) 3 B) 4 C) 2 D) 5 E) 6

*(21 aprel 2024, DİM)*

**15.** $m$-in hansı qiymətlərində $x^2-2mx-(m-2)=0$ tənliyinin iki bərabər kökü var?

A) $1\,;\,2$ B) $-2;\,1$ C) $-2;\,4$

D) $-1;\,3$ E) $3;\,4$

*(21 aprel 2024, DİM)*

**16.** Motorlu qayığın çayın axını ilə sürəti $20{,}4\ km\backslash saat$, axına qarşı isə $15{,}6\ km\backslash saat$ olarsa, çayın sürətini hesablayın.

A) $1{,}2\ km\backslash saat$ B) $4\ km\backslash saat$

C) $3{,}6\ km\backslash saat$ D) $2\ km\backslash saat$

E) $2{,}4\ km\backslash saat$

*(21 aprel 2024, DİM)*

**17.** Əvvəlcə səbətdən 6 alma, sonra qalan almaların sayının $\frac{1}{3}$-i qədər və daha 6 alma götürdülər. Nəticədə səbətdə əvvəlki almaların yarısı qədər alma qaldı. Əvvəlcə səbətdə neçə alma var idi?

*(21 aprel 2024, DİM)*

**18.** İsmət kitabı hər gün eyni qədər səhifə oxumaqla 15 günə bitirməli idi. Lakin o hər gün nəzərdə tutduğundan 3 səhifə çox oxuyaraq bu kitabı 10 günə bitirdi. Kitabda neçə səhifə var?

*(21 aprel 2024, DİM)*

**19.** İki ardıcıl tam ədədin hasili bunlardan sonra gələn iki ardıcıl tam ədədin hasilindən 34 vahid kiçikdir. Bu ədədlərdən kiçiyini tapın.

A) 11 B) 9 C) 6 D) 7 E) 10

*(7 aprel 2024, DİM)*

**20.** İki kitabın qiyməti 78 manatdır. Kitablardan biri o birindən 5 dəfə bahadır. Ucuz kitab neçəyədir?

A) 24 *manat* B) 13 *manat*
C) 10 *manat* D) 26 *manat*
E) 12 *manat*

*(7 aprel 2024, DİM)*

**21.** $2002 - 1002x = 1000$ tənliyini həll edin.

A) 2000 B) 0 C) $-2000$
D) $-3$ E) 1

*(7 aprel 2024, DİM)*

**22.** Kitab, dəftər və qələmin birlikdə qiyməti 16 manatdır. Hər birini qiyməti 2 manat bahalaşsa, hər birindən bir ədəd almaq üçün nəqədər pul lazım olar?

A) 22 *manat* B) 19 *manat*
C) 21 *manat* D) 20 *manat*
E) 23 *manat*

*(7 aprel 2024, DİM)*

**23.** Şirkətin mühafizəsi işində çalışan işçilərdən Namiq müəyyən saat gündüz vaxtı, Qurban isə müəyyən saat gecə vaxtı növbədə dayanır. Namiq hər saata 30 manat, Qurban isə hər saata 45 manat qazanır. Bu iki işçi 1 sutka ərzində ümumilikdə 14 saat növbədə qaldıqlarına görə cəmi 510 manat əldə etdilər. Namiq gün ərzində neçə saat növbədə dayanır?

*(7 aprel 2024, DİM)*

**24.** $4 + \frac{1-3x}{5} = -\frac{x-5}{2}$ tənliyini həll edin.

A) 17 B) –16 C) –17
D) 16 E) 7

*(17 mart 2024, DİM)*

**25.** $x^2 + 6x + 12 = 0$ tənliyinin neçə həqiqi kökü var?

A) 3 B) həqiqi kökü yoxdur C) 1
D) 2 E) sonsuz sayda

*(17 mart 2024, DİM)*

**26.** Ana və qızının yaşları cəmi 62-dir. Ananın 4 il əvvəlki yaşı qızının 6 il sonrakı yaşından 3 dəfə çox olarsa, ananın indiki yaşını tapın.

*(17 mart 2024, DİM)*

**27.** Qrafikdə test tapşırıqlarını eyni gündə yerinə yetirməyə başlayan Akif və Elnurun hər günün sonunda qalan sual saylarının günlərə görə dəyişməsi verilmişdir. Neçənci günün sonunda Akif və Elnurun qalan sual sayları bərabər olar?




*(17 mart 2024, DİM)*

**28.** Bir çən üç vedrədən 5 dəfə çox su tutur. Bir vedrə 5 litr su tutursa, bir çən neçə litr su tutar?

A) 15 B) 50 C) 20 D) 25 E) 75

*(30 aprel 2023, DİM)*

**29.** $0{,}5(x+3) = 0{,}8(10-x)$ tənliyini həll edin.

A) -1 B) 2 C) 4 D) 1 E) 5

*(30 aprel 2023, DİM)*

**30.** $x(x-\sqrt{10}) = 0$ tənliyinin kökləri cəmini tapın.

A) $\sqrt{10}$ B) 0 C) 5
D) $\sqrt{5}$ E) $2\sqrt{10}$

*(30 aprel 2023, DİM)*

**31.** $x^2 + (x-5)^2 = 144$ tənliyinin kökləri hasilini tapın.

*(16 aprel 2023, DİM)*

**32.** $x(x-\sqrt{5}) = 0$ tənliyinin kökləri hasilini tapın.

A) 0 B) $2\sqrt{5}$ C) 3 D) 10 E) $\sqrt{5}$

*(9 aprel 2023, DİM)*

**33.** $\frac{15+x}{4} = 5$ tənliyinin kökündən 10 vahid böyük olan ədədi tapın.

A) 5 B) 10 C) 15 D) 20 E) 25

*(9 aprel 2023, DİM)*

**34.** 8 mərtəbəli binanın hər mərtəbəsində 20 pilləkən varsa, binada ümumi neçə pilləkən var ?

*(9 aprel 2023, DİM)*

**35.** $x^2 - 6x - 27 = 0$ tənliyinin köklərini tapın.

A) $\{3; -9\}$ B) $\{3; 9\}$
C) $\{-3; -9\}$ D) $\{-3; 9\}$
E) $\{-2; 9\}$

*(1 may 2022, DİM)*

**36.** $x_1$ və $x_2$, $x^2+8x+4=0$ tənliyinin kökləri olarsa, $\sqrt{14\cdot\frac{x_1^2+x_2^2+2x_1x_2}{x_1^2+x_2^2}}$ ifadəsinin qiymətini hesablayın.

*(1 may 2022, DİM)*

**37.** $b$-nin hansı qiymətində $(b^2-121)\cdot x=b-11$ tənliyinin sonsuz sayda həlli var?

A) 12 B) –11 C) –10
D) 11 E) –12

*(30 aprel 2022, DİM)*

**38.** Qayığın çayın axını ilə sürəti 10,8 km/saatdır. Çayın sürəti 4,1 km/saatdır. Qayığın öz sürətini tapın.

A) 5,4 $km/saat$ B) 8,2 $km/saat$
C) 6,7 km/saat D) 3,7 $km/saat$
E) 3,6 $km/saat$

*(30 aprel 2022, DİM)*

**39.** $x$ ədədinin üzərinə 27 əlavə etdikdə 60-dan 37 vahid böyük ədəd alınar. $x$-i tapın.

A) 70 B) 50 C) 126 D) 40 E) 124

*(30 aprel 2022, DİM)*

**40.** İki ardıcıl tam ədədin hasili ondan sonrakı iki ardıcıl tam ədədin hasilindən 42 vahid kiçikdir. Bu ədədlərdən ən kiçiyini tapın.

A) 8 B) 7 C) 9 D) 10 E) 11

*(30 aprel 2022, DİM)*

**41.** $x^2+(2m-1)x-m+1=0$ tənliyinin kökləri cəmi $(-5)$ olarsa, $x_1^2x_2+x_1x_2^2$-ni tapın.

*(30 aprel 2022, DİM)*

**42.** Tənliyi həll edin:
$(x+9)+(x+11)+(x+10)=57$

A) 11 B) 3 C) 9 D) 13 E) 6

*(24 aprel 2022, DİM)*

**43.** $x$-in hansı müsbət qiymətində $\frac{1}{x+1}+\frac{1}{x+3}=\frac{5}{12}$ bərabərliyi doğrudur?

A) 3 B) 2 C) 4 D) 6 E) 5

*(24 aprel 2022, DİM)*

**44.** k-nın hansı qiymətində $x^2-12x+k=0$ kvadrat tənliyinin köklərindən biri digərindən 3 dəfə böyükdür?

A) 12 B) 27 C) 30 D) 32 E) 48

*(23 aprel 2022, DİM)*

**45.** $5(3x-4)+2(x-4)=6$ tənliyini həll edin.

A) 2 B) 4 C) 3 D) 5 E) –1

*(23 aprel 2022, DİM)*

**46.** $\frac{a^2-8a+15}{b-7}\cdot x=\frac{b^2-9b+14}{a-3}$ tənliyinin sonsuz sayda həlli olarsa, $a$ və $b$ parametrlərinin qiymətləri cəmini tapın.

*(17 aprel 2022, DİM)*

**47.** $\frac{3(x-1)}{4}=\frac{10x-26}{8}$ tənliyini həll edin.

*(17 aprel 2022, DİM)*

**48.** $(x+3)\left(2+\frac{1}{x+3}\right)=0$ tənliyini həll edin.

A) –3 B) –3,5 C) 5
D) 15 E) 36

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1 (1,5) 2 (10) 3 (12) 4B 5A 6 (22)

7 (1720) 8 (30) 9 (C) 10 (28)

11 (226 alış, 221 satış) 12C 13 (3) 14C

15B 16E 17 (60) 18 (90) 19D 20B 21E

22A 23 (8) 24A 25B 26 (52) 27 (6)

28E 29E 30A 31 (-59,5) 32A 33C

34 (140) 35D 36 (4) 37D 38C

39A 40C 41 (10) 42C 43A 44B

45A 46 (7) 47 (5) 48B